**ПРИЧИНЫ РАЗВИТИЯ ОТНОШЕНИЙ СССР И ТУРЦИИ В 1950-1960-Е ГГ.**

***Исмаилов Исмаил Акиф оглу***

***Резюме***

Поскольку СССР и Турция в 50-х и 60-х годах 20 века находились по разные стороны, то и отношения между ними были весьма ограниченными. Относительное ускорение двусторонних отношений пришлось на вторую половину 1960-х гг. Эти отношения были взаимно стабилизированы руководителями СССР и Турции. В результате политически малоэффективные для обеих стран отношения приобрели динамизм и разнообразие. Советский Союз отвечал взаимностью на эту политику сближения. А во второй половине 1960-х годов Москва дошла до сотрудничества с Анкарой по кипрскому вопросу, угрожавшему региону.

Следует подчеркнуть, что отношения между СССР и Турцией всегда интересовали историков и политологов на международной арене. Эта ситуация продолжается и сегодня. Поэтому в данной статье были исследованы основные причины развития отношений между СССР и Турцией в период с 1950-х по 1960-е годы.

**REASONS FOR THE DEVELOPMENT OF RELATIONS BETWEEN THE USSR AND TURKEY IN THE 1950S-1960S.**

***Ismail Ismailov Akif***

***Summary***

Since the USSR and Turkey were on opposite sides in the 50s and 60s during the 20th century, relations between them were very limited. The relative acceleration of bilateral relations took place in the second half of the 1960s. These relations were mutually stabilized by the leaders of the USSR and Turkey. As a result, relations that were politically ineffective for both countries acquired dynamism and diversity. The Soviet Union reciprocated this policy of rapprochement. And in the second half of the 1960s, Moscow came to cooperation with Ankara on the Cyprus issue, which threatened the region.

It should be emphasized that the relations between the USSR and Turkey have always been of interest to historians and political scientists in the international arena. This situation continues today. Therefore, this article explored the main reasons for the development of relations between the USSR and Turkey in the period from the 1950s to the 1960s.

***Rəyçi: dosent Vüsalə Veysəlova***
***Ümumi tarix kafedrasının 29 noyabr 2022-ci il tarixli iclasın 04 saylı protokolu***
***Daxil olma tarixi 02 dekabr 2022-ci il***

**UOT:94(479.24).**

**MÜASIR MƏRHƏLƏDƏ XƏZƏR DƏNİZİNİN STATUSU PROBLEMİ**

***dos. Aslanova Emma Əli qızı, dos. Bağırova Sevinc Ramiz qızı***
***Gəncə Dövlət Universiteti***
***Seva.bagirova.1978@mail.ru***

**Xülasə:** *SSRİ-nin dağılması nəticəsində Xəzəryanı dövlətlərin sayı beş oldu. Xəzərin yeni geosiyasi statusu dənizin xəzəryanı ölkələr arasında bölüşdürülməsi və onun*

*karbohidrogen yataqlarının mənsubiyyəti məsələlərini gündəmə gətirdi. Məlumdur ki, Xəzər hövzəsi öz geosiyasi və geoiqtisadi imkanlarına görə bölgə ölkələri üçün həyati əhəmiyyət kəsb edir. Qeyd edək ki, Xəzər dənizinin hüquqi statusu beynəlxalq məsələdir və dünyanın aparıcı dövlətləri bu regionda mövqelərini möhkəmləndirməklə bütövlükdə Qafqazda, Mərkəzi Asiya və Orta Şərqdə üstünlük əldə edə bilərlər.*

**Açar sözlər:** Xəzər dənizi, Xəzərin hüquqi statusu, Xəzəryanı dövlətlər, Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının Zirvə Toplantısı, iqtisadi əməkdaşlıq, kommunikasiya.

**Ключевые слова:** Каспийское море, правовой статус Каспия, прикаспийские государства, Саммит глав прикаспийских государств, экономическое сотрудничество, коммуникации.

**Keywords:** Caspian Sea, legal status of the Caspian, Caspian states, Summit of the heads of Caspian states, economic cooperation, communications.

Xəzərin hazırkı statusu iki müqaviləyə əsasən tənzimlənir. Bunlar 1921-ci il fevralın 26-da imzalanmış Rusiya-İran dostluq müqaviləsi və 1940-cı il martın 25-də imzalanmış Ticarət və Gəmiçilik haqqında sazişdir. Mütəxəssislərin fikrinə görə, hal-hazırda bölgüyə yenidən baxılmasının heç bir əsası yoxdur. Çünki yeni bölgüyə əsasən də nə İrana 20%-lik pay, nə də ki, Türkmənistana əlavə yataq vermək mümkün deyil. Qeyd edək ki, 1991-ci il dekabrın 21-də varis respublikalar SSRİ-nin bağladığı bütün beynəlxalq öhdəlikləri yerinə yetirməyə təminat verdikləri Almatı Deklarasiyasını imzalamaqla Sovet-İran razılaşmasının hüquqi varisliyini də qəbul etmiş oldular. Hazırkı hüquqi rejim 1996-cı il noyabrın 12-də Aşqabadda Xəzərətrafı dövlətlər tərəfindən əldə edilmiş qarşılıqlı razılaşmaya əsasən yeni Konvensiya qəbul olunana qədər qüvvədədir.(2)

Sahilyanı dövlətlər Xəzərin hüquqi statusu məsələsi ilə bağlı 1992-ci ildən başlanan danışıqlardan və uzun sürən müzakirələrdən sonra nəzəri sahədən təcrübəyə keçdilər. Bununla bağlı, hövzə rayonunda yaranan beynəlxalq münasibətlər və Xəzər dənizinin beynəlxalq-hüquqi statusunun müəyyən edilməsi problemləri üzrə danışıqları şərti olaraq üç mərhələyə bölmək olar. Birinci mərhələ 1991-1994-cü illəri əhatə edir. Bu mərhələ problemin həlli üçün münasib variantın axtarışı mərhələsidir. İkinci mərhələnin əhatə etdiyi 1995-1998-ci illərdə real yanaşma və təkliflər irəli sürülmüş, bir sıra çoxtərəfli mühüm görüş və konfranslar keçirilmişdir. Sonuncu, üçüncü mərhələ 1998-cı ildən başlayır. Bu mərhələ Rusiyanın Xəzərin hüquqi statusu məsələsində mövqeyinin tam dəyişməsi və ikitərəfli razılaşmaların əldə edilməsi ilə əlamətdardır.

1994-cü ilin sentyabr ayında "Əsrin müqaviləsi"nin imzalanması Xəzərətrafı dövlətlərin gələcək çoxtərəfli danışıqlarının inkişafına müsbət təsir göstərdi. Qeyd edək ki, Rusiya və İran tərəfi "Əsrin müqaviləsi"nin imzalanmasına qədər Xəzərin statusu məsələsinə yenidən baxılmasının tərəfdarı deyildilər. Lakin müqavilənin bağlanmasından sonra onlar Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi məsələsini bilavasitə yeni hüquqi statusun yaranması ilə əlaqələndirməyi qərara aldılar.

1995-ci ildən başlamış Xəzəryanı dövlətlərin əməkdaşlığının ikinci mərhələsində Xəzərin yeni hüquqi statusunun yaranması məsələsi dünyanın aparıcı dövlətləri üçün də vacib bir məsələyə çevrildi. Lakin çoxtərəfli əməkdaşlıq dövrü olan bu mərhələ ərzində keçirilən saysız-hesabsız rəsmi görüşlərə baxmayaraq heç bir real nəticə əldə edilmədi.

Rusiya nümayəndələri 1997-ci ildə Xəzərin bölgüsü məsələsi ilə bağlı yeni təkliflə çıxış edirlər. Bu layihəyə görə Xəzər beş ölkənin daxili gölü hesab edilməlidir və onun yalnız 12 millik sahil ərazisinin dibi və su səthi milli sektorlara bölünməli, bundan sonra gələn 25 millik dəniz dibi və suyun üzü "iqtisadi zona" kimi tanınmalı, dənizin qalan bütün su hövzəsi və dibi

isə yalnız “ümumi” hesab edilməlidir. Beləliklə, bu bölgüyə əsasən Xəzərin əsas karbohidrogen ehtiyatları, o cümlədən Azərbaycanın bugünkü əsas neft və qaz yataqları “ümumi istifadəyə” verilməli idi. Qeyd edək ki, bu bölgüyə görə Azərbaycandan başqa, bütün Xəzəryanı dövlətlərin milli sektorlarındakı ehtiyatlar onların öz ərazisində qalırdı. Göründüyü kimi, ruslar Azərbaycanın zəngin karbohidrogen yataqlarını ümumi istifadəyə verməklə, gələcəkdə Azərbaycanı bu sərvətlərdən məhrum etmək niyyətində idi. Lakin Ulu Öndər Heydər Əliyevin nümayiş etdirdiyi polad iradə, həmçinin beynəlxalq hüquq və beynəlxalq aləmin Azərbaycan tərəfində olması Rusiyanın bu planlarını pozdu.

1998-ci ildən başlanan üçüncü mərhələdə Rusiya konstruktiv mövqe nümayiş etdirərək Azərbaycanın Xəzər dənizində həyata keçirdiyi bütün layihələri rəsmi şəkildə tanıyır və həmin layihələrdən özünə də pay almağa çalışırdı. Bununla da, demək olar ki, Rusiya, Qazaxıstan və Azərbaycan üçün Xəzərin statusu məsələsi həll edildi. Daha sonra 2003-cü il mayın 14-də Astanada Azərbaycan, Rusiya və Qazaxıstan arasında “Xəzərin dibinin orta xətt üzrə milli sektorlara bölünməsi, su səthinin ümumu istifadəsi” haqqında üçtərəfli saziş imzalandı. Müqaviləyə əsasən orta xətt üzrə Xəzərin dibinin 18,7% Rusiyanın, 19,5% Azərbaycanın, 29,6% Qazaxıstanın, həmçinin 13,8% İranın və 18,4% Türkmənistanın nəzarətində qaldı. Azərbaycanın xeyrinə müsbət təsir göstərən bu üçtərəfli saziş dənizdəki qüvvələrin nisbətinin köklü şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu.

Xəzərin hüquqi statusu məsələsində İranın mövqeyinə gəldikdə isə, bununla bağlı iki əsas təklifi göstərmək olar. Birinci təklifdə beş sahil ölkəsi arasında dənizin dibinin 20% olmaqla “bərabər bölünməsi” və səthinin ümumi istifadə edilməsi nəzərdə tutulur. İranın ikinci təklif isə hər bir sahilyanı dövlətə öz ərazisindən dənizin ortasına doğru 20 millik “sahil ərazi suları zonası” və 20 millik “iqtisadi zona” ayrılmasından ibarətdir. Bununla yanaşı sahil ərazilərdə Xəzərin dibi, səthi və hava məkanı dövlətlərin tam nəzarətində saxlanılırdı. Göründüyü kimi, bunlar beynəlxalq hüquqa söykənməyən və coğrafi cəhətdən həyata keçirilməsi çox çətin olan bir təkliflərdir. Bir faktı da xüsusilə qeyd etmək lazımdır ki, 1992-ci ildən bu günədək İranın Xəzərin statusu ilə bağlı mövqeyində demək olar ki, heç bir ciddi dəyişiklik baş verməmişdir. (3)

Məlumdur ki, Türkmənistan da Xəzərin statusuna dair danışıqların ilkin mərhələsində qeyri-konstruktiv mövqe nümayiş etdirirdi. Türkmənistan 1997-ci ilə qədər Xəzərin milli sektorlara bölünməsini və ya birgə istifadə prinsipini dəstəkləyirdi. Lakin 1997-ci ildən etibarən Türkmənistan birgə istifadə ideyasından imtina edir və yalnız milli sektorlara bölünməsinin tərəfdarı olur. Qeyd edək ki, Xəzərin statusunun həll edilməsində anlaşılmazlığın əsas səbəblərindən biri Türkmənistanın Xəzərdəki bəzi yataqlarla bağlı Azərbaycana qarşı bir sıra iddialarla çıxış etməsidir. Yaranmış problemin aradan qaldırılması üçün iki tərəf arasında aparılan danışıqların bu günə qədər heç bir real nəticəsi olmamışdır.

Beləliklə, göründüyü kimi, Xəzərin statusunun müəyyən olunması ilə bağlı müzakirə olunan və ən çox diqqət çəkən dörd təklif mövcud olmuşdur. Birincisi, Azərbaycanın təklifidir. Bu yanaşmaya əsasən Xəzər bir dənizdir və BMT-nin “Dəniz hüquqları haqqında” Konvensiyasının bütün tələbləri onun hüquqi statusunun müəyyən edməsinə və Xəzəryanı dövlətlərin milli hüquqlarının reallaşdırılmasına tətbiq edilməlidir. Beləliklə, orta xətt prinsipi üzrə dənizin dibi və səthi milli sektorlara bölünməli və hər bir dövlət beynəlxalq hüquqa uyğun olaraq öz sektorunda fəaliyyət göstərməlidir.

İkinci yanaşmanın tərəfdarı olan Rusiya və İran Xəzəri göl adlandıraraq, “Dəniz hüquqları haqqında” BMT Konvensiyasının tələblərinin ona tətbiq edilməsini qeyri mümkün hesab edir. Belə ki, bu təklifə görə bütün sahilyanı dövlətlər su hövzəsinin “ümumi istifadəsi

tələblərinə” əməl etməli və hər hansı Xəzərətrafı dövlətin öz iqtisadi zonasında sərbəst fəaliyyət göstərməsi qəbuledilməz hesab edilməlidir.

Beynəlxalq hüquqa uyğun olmayan və həyata keçirilməsi qeyri real olan üçüncü təklif İran tərəfindən irəli sürülmüş və Türkmənistanın da dəstəyini qazanmışdır. Bu təklifdə Xəzərin beş bərabər hissəyə bölünməsi nəzərdə tutulurdu.

Nəhayət, Rusiyanın və İranın təklif etdiyi və yenə də heç bir beynəlxalq hüquqa əsaslanmayan dördüncü varianta görə hər bir sahilyanı ölkə Xəzərdə 12 millik sahil zonası üzərində suveren hüquqa malik olur, bundan sonrakı 25 mil “iqtisadi zona” kimi qəbul edilir, dənizin ortasındakı qalan ərazilər isə hər bir sahilyanı dövlətin birgə istifadəsinə keçirdi.

Beləliklə, Xəzərin hüquqi statusu probleminə hər bir dövlət fərqli yanaşır və bu zaman daha çox hüquq normalarına deyil milli maraqlara söykənirlər. Bu baxımdan hələ də Xəzərin hüquqi statusu müəyyən edilməyib, hətta illər ərzində hövzənin dəniz və ya göl olması statusu da təyin edilməmişdir.

Qeyd edək ki, Azərbaycanın məsələ ilə bağlı bütün bu müddət ərzində nümayiş etdirdiyi güclü geosiyasi iradə dövlətlərin hamısının ümümi maraqlarına uyğun gələrək Xəzərətrafı ölkələrin mövqeyindəki dəyişikliklərə səbəb olmuşdur.

Xəzəryanı dövlət başçılarının 2002-ci ildə Aşqabadda keçirilən birinci sammiti Xəzərin yeni hüquqi statusunun müəyyənləşməsi üçün müzakirələrin başlanmasına zəmin yaratdı. Daha sonra Xəzəryanı dövlət başçılarının 2007-ci ildə Tehranda və 2010-cu ildə Bakıda keçirilən Sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir daha Azərbaycanın Xəzərin statusu haqqında mövqeyinin dəyişməz olaraq qaldığını və müştərək bəyannamənin imzalanmasının Xəzəryanı ölkələrin həmkarlığının güclənməsinə kömək edəcəyini qeyd etmişdir. 2010-cu ildə Bakıda keçirilən Üçüncü Xəzər Sammiti Xəzər dənizinin hüquqi statusuna dair başlıca məsələlərin, xüsusən milli zonanın eninin və dənizin bioloji ehtiyatlarının mühafizəsinin razılaşdırılmasına ümumi yanaşmaların işlənib hazırlanmasına dair məsələlərin həlli üzrə danışıqlar prosesinə yeni təkan verdi. Bakı Sammitinin yekunlarına əsasən imzalanan “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş” qaçaqmalçılığa, brakonyerliyə, qanunsuz miqrasiyaya, insan alverinə, mütəşəkkil cinayətkarlığa və terrorizmə qarşı mübarizə sahəsində sərhəd xidmətləri və digər dövlət qurumları arasında əməkdaşlığın və qarşılıqlı fəaliyyətin mühüm mexanizmini yaratdı.

29 sentyabr 2014-cü ildə Rusiyanın Həştərxan şəhərində keçirilən Xəzəryanı dövlət başçılarının lV Sammitində Xəzərin hüquqi statusu ilə bağlı son real nəticə əldə edilmişdi. Sammitdə Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran prezidentləri bir araya gələrək Xəzərin hüquqi statusu, hövzə regional təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə edərək, birgə siyasi bəyanat imzalamışlar. Birgə bəyanata əsasən ilk dəfədir ki, Xəzərin su səthinin sahildən başlayaraq orta xətt üzrə 15 millik məsafəsi ölkələrin suveren ərazisi kimi təsdiq edilir, digər 10 millik məsafədə isə dənizin bioloji resurslarının hasilatı sahəsində dövlətlərin müstəsna hüququ təsdiqlənirdi. Qeyd edək ki, Həştərxan bəyanatında, gələcəkdə Xəzər dənizinin dibinin və səthinin hamı tərəfindən qəbul olunmuş prinsiplər əsasında milli sektorlara bölünməsi zərurəti də öz əksini tapdı. (5)

Sammitdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir ki, Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında Azərbaycan Respublikası və Qazaxıstan Respublikası, Azərbaycan Respublikası və Rusiya Federasiyası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında ikitərəfli, habelə Azərbaycan, Qazaxıstan və Rusiya arasında üçtərəfli sazişlər Xəzərin hüquqi statusunun hərtərəfli tənzimlənməsi üçün mühüm rol oynayır. Azərbaycan hesab edir ki, bu sazişlərdə təsbit

olunmuş prinsiplər bütün Xəzəryanı dövlətlər arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsinə dair razılaşmalara nail olmaq üçün yaxşı əsas ola bilər.

12 avqust 2018-cü ildə Qazaxıstanın Aktau şəhərində Xəzəryanı ölkələrin V sammiti çərçivəsində Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalandı.(6)

2022-ci ilin iyun ayının 29–da Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etmişdir. Həmin toplantıda çıxış edən ölkə başçısı bir sıra məsələlər haqqında fikirlərini bildirmişdir. (7)

Məlum olduğu kimi, Xəzər dənizinin hüquqi statusuna dair 2018-ci ildə Aktauda imzalanmış Konvensiya xüsusi tarixi əhəmiyyət kəsb edir. Çoxillik danışıqlar nəticəsində imzalanmış bu sənəd Xəzərin hüquqi statusunu müəyyən etmiş, həmin Konvensiyanın tezliklə qüvvəyə minməsi dövlətlərin bundan sonrakı hərtərəfli qarşılıqlı fəaliyyətinə və əməkdaşlığına yönəlmiş daha təsirli tədbirlər görülməsi üçün möhkəm hüquqi zəmin yaradacaq. Qəbul edilmiş Konvensiyayanın müddəaları Xəzəryanı dövlətlərin əməkdaşlığının müqavilə-hüquqi bazasını təşkil edir. Təhlükəsizlik, nəqliyyat, hidrometeorologiya, suyun bioloji ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahələrində, habelə qarşılıqlı maraq doğuran başqa sahələrdə sazişlər imzalanmış və artıq hüquqi qüvvəyə malikdir. Xəzəryanı dövlətlər arasında dayanıqlı münasibətləri təmin edilməsi üçün Xəzər dənizinin dibinin sərhədləri barədə ikitərəfli və çoxtərəfli formatlarda hüquqi cəhətdən məcburi sazişlər bağlanmışdır. Xəzəryanı ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətləri, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı, MDB və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq Xəzər dənizində sabitliyin və təhlükəsizliyin qarantıdır.

Xəzər dənizi bölgədə olan dövlətlərdə yaşayan xalqların həyat səviyyəsinin yüksəldilməsinə yönəlmiş bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsi statusundadır. Qarşılıqlı fəaliyyətin əsasını bütün tərəflərin mənafelərinin nəzərə alınması, Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq təşkil edir. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişafı, investisiya mühitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyaların qurulması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasına çalışmaq sahilyanı dövlətlərin əsas prioritetlərdir.

Bütün bunları ümumiləşdirərək deyə bilərik ki, hələ Xəzərin hüquqi statusu probleminin yarandığı ilk vaxtdan regionun və ölkəmizin təhlükəsizliyi baxımından bu məsələnin nə qədər mühüm əhəmiyyət daşıdığını nəzərə alan Azərbaycan diplomatiyası bütün görüşlərdə Xəzərlə bağlı mövcud siyasi kursu davam etdirərək, problemin bütün aspektlərinin müzakirələr yolu ilə həllinə çalışır və bir çox müsbət nəticələr əldə edir. Bütün bunlar Xəzərin hüquqi statusu probleminin həlli istiqamətində Azərbaycanın məqsədyönlü xarici siyasətinin uğurlu diplomatik fəaliyyəti kimi dəyərləndirilməlidir.

### *Ədəbiyyat*

1. Məmmədov Z., Uluxanlı V. Azərbaycan-Orta Asiya respublikalararası nəqliyyat-iqtisadi əlaqələrinin inkişafının coğrafi xüsusiyyətləri "Azərb. XXI əsrin astanasında" II respublika praktik konfransının materialları, Bakı, 1998.
2. Salmanov A., Şuxanlı V. Azərb. Mərkəzi Asiya:nəqliyyat sisteminin inkişaf perspektivləri. "Azər. XXI əsrin astanasında" II respublika praktik konfransının materialları, Bakı, 1998.
3. Sarıyev Ə. Xəzər nefti:Strateji maraqlar və ziddiyyətlər. "Respublika" qəzeti, 28.01.2003.

4. Araz Osman Nuri, Azerbaycan Hazar ekonomisi və stratejisi, İstanbul, 2001.
5. https://president.az/az/articles/view/12985
6. https://az.trend.az/azerbaijan/politics/2939679.html
7. https://president.az/az/articles/view/56573

## ПРОБЛЕМА СТАТУСА КАСПИЙСКОГО МОРЯ НА СОВРЕМЕННОМ ЭТАПЕ

***Асланова Эмма Али кызы, Багирова Севиндж Рамиз кызы***

***Резюме***

В результате распада СССР количество прикаспийских государств стало пять. Новый геополитический статус Каспия поставил вопросы о разделе моря между прикаспийскими странами и принадлежности его месторождений углеводородов. Известно, что Каспийский бассейн имеет жизненно важное значение для стран региона в силу своих геополитических и геоэкономических возможностей. Следует отметить, что правовой статус Каспийского моря является международным вопросом, и ведущие государства мира могут получить преимущество на Кавказе, в Центральной Азии и в целом на Ближнем Востоке, укрепив свои позиции в этом регионе.

## THE STATUS PROBLEM OF THE CASPIAN SEA AT THE MODERN STAGE

***Aslanova Emma Ali, Bagirova Sevinj Ramiz***

***Summary***

As a result of the collapse of the USSR, the number of Caspian states became five. The new geopolitical status of the Caspian Sea raised questions about the division of the sea between the Caspian countries and the ownership of its hydrocarbon deposits. It is known that the Caspian basin is of vital importance for the countries of the region due to its geopolitical and geo-economic capabilities. It should be noted that the legal status of the Caspian Sea is an international issue, and the leading states of the world can gain an advantage in the Caucasus, Central Asia and the Middle East in general, strengthening their positions in this region.

***Rəyçi: dos. Bağırzadə Cavid***
***Azərbaycan tarixi kafedrasının 12 sentyabr 2022 ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olma tarixi 12 oktyabr 2022 ci il***

**UOT:902.**

## ABŞERONDA ARXEOLOJİ TƏDQİQATLAR VƏ ONLARIN İLKİN NƏTİCƏLƏRİ

***t.ü.f.d., dosent Babayev Əlibaba Hüseynqulu oğlu***
***AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya***
***Sabinaaliyeva1997@bk.ru***

**Xülasə:** *Abşeron yarımadasındakı müdafiə qalaları əsasən XIII-XIV əsrin yadigarlarıdır. Abşeronda tikilmiş qalalar (Mərdəkan, Nardaran, Ramana, Bilgəh və.s) vahid müdafiə sisteminin tərkib hissələri olmuş, sığınacaq və gözətçi məntəqələri rolunu oynamışlar. Abşeron qalalarının şimal- şərq sahil boyu tikilməsi təhlükənin daha çox həmin istiqamətdən gözlənilməsi ilə bağlı idi. Əgər düşmən sahilboyu yerləşən qalalardan birini ələ keçirsə idi, o zaman yarımadanın içərilərində Maştağa, Zabrat, Qala, Ramana*